**Məşvərət jurnalı AQRAR BAZARLARIN TƏNZİMLƏNMƏSİ ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ**

**RÖVŞƏN QULİYEV**

Keçid iqtisadiyyatlı ölkələrdə iqtisadiyyat liberallaşdıqca dövlətin rolu azalmır, diqqət dövlət sahibkarlığından dövlət planlaşdırılmasına və idarəetməsinə (indikativ) keçir. Özəl müəssisələrin sayı artdıqca dövlətin tənzimləyici və nəzarətedici rolu yüksəlir. Bu fakt **zəruri müxtəliflik qanununda** öz əksini tapıb. Qanunda deyilir: *idarəetmə obyekti mürəkkəb olduqca onu idarə edən orqan da bir o qədər mürəkkəb olmalıdır*.

Bütün ölkələrdə, o cümlədən inkişaf etmişlərdə də iqtisadi böhranların və ictimai çevrilişlərin müxtəlif dövrlərində iqtisadi proseslərə dövlət müdaxiləsinin intensivləşdirilməsi zərurəti olub. Bu, iki dünya və lokal (məsələn, ABŞ-ın Vyetnam müharibəsi) müharibələr, Böyük tənəzzül və sair dövrlər üçün səciyyəvidir. Məsələn, İngiltərə XIX əsrdə daxili çörək bazarını sənayenin xeyrinə liberallaşdırdıqdan sonra nəticədə həmin sahəni itirdi və idxaldan asılı vəziyyətə düşdü. Bu, ölkədə I və II müharibələri zamanı xüsusilə hiss olunub. Bundan sonra əks proqram qəbul olundu. İndi İngiltərə ixracedici ölkə olub.

Digər tərəfdən, Transmilli Şirkətlərin (TMŞ) fəaliyyəti Azərbaycan kimi kiçik dövlətlərin bəzi sahələrində mərkəzləşdirilmiş idarəetmə və planlaşdırmanın mümkün olan səmərəliliyinə işarə edir.

Yuxarıda söylənənlər iqtisadiyyatın dövlət tənzimlənməsinin (İDT) yalnız keçid iqtisadiyyatlarının, yaxud fövqəladə vəziyyətlərin tələbatından irəli gəlməsi demək deyildir. Müasir dünyada permanent (daimi) fəal İDT hökumət fəaliyyətinin atributu, belə demək olarsa, «həyat tərzi»dir. Dünya Bankının prezidenti D.Vulfensonun bu barədə rəyi tam müfəssəldir**: «Son yüzillik ərzində dövlətin funksiyaları xüsusilə sənayecə inkişaf etmiş ölkələrdə mühüm dərəcədə genişlənib. Bu, ikinci dünya müharibəsinə qədərki dövrdə digər amillərlə bərabər Böyük tənəzzülün ağır iqtisadi və sosial nəticələrinin nəzərə alınması zərurətindən doğmuşdu. Müharibədən sonrakı dövrdə hökumətlərə inam artdı, ancaq eyni zamanda onlardan da daha çox şey tələb olunurdu. Sənayecə inkişaf etmiş ölkələrdə dövlətin ümumi rifah sahəsi genişlənmişdi, inkişafda olan ölkələrin əksəriyyətində üstünlük dövlətin aparıcı rol oynadığı ictimai inkişaf strategiyalarına verilirdi. Nəticədə hökumət fəaliyyətinin ölçüləri və sahələri bütün dünyada olduqca genişləndi. Dövlət xərcləri sənayecə inkişaf etmiş ölkələrdə ÜDM-in yarısını və inkişafda olan ölkələrdə isə təqribən dördə birini təşkil edir». (Voprosı gkonomiki, 1997, №7, s.7).**

Söylənənləri rəqəmlərlə sübut edək: inkişaf etmiş ölkələrin dövlət xərcləri ÜDM-in həm mütləq, həm də payı qismində daim artıb və ABŞ üçün 1946-cı ildə 20,4%, 1994-cü ildə 32,7%, Böyük Britaniya üçün 1960-cı ildə 32,2%, 1995-ci ildə 42,1%, AFR üçün 1960-cı ildə 32,5%, 1995-ci ildə 49,35% təşkil edib.

İnkişaf etməkdə olan ölkələrin xərcləri daha az dərəcədə artmaqdadır. Belə ki, bu ölkələrdə cari xərclər 1950-60-cı illərdəki 11%-dən 1980-90-cı illərdəki 18%-ə yüksəlib. Ümumi xərclər isə (əsaslı xərclərlə birlikdə) ÜDM-in 24,2%-ni təşkil edib.

Bununla yanaşı, qeyd edilməlidir ki, hökumətlər öz tənzimləyici fəaliyyətlərini azaltmağa səy göstərir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatının retrospektiv təhlili göstərir ki, təsərrüfat prosesinə dövlətin müdaxiləsinin dərəcəsi dövri olaraq dəyişir, xüsusən də millilləşdirmə və əks-milliləşdirmə dövrü olaraq bir-birini əvəz edir. Beynəlxalq Valyuta Fondu (BVF), Ümumdünya Ticarət Təşkilatı (ÜTT), yuxarıda adı çəkilən Dünya Bankı (DB) və başqa beynəlxalq iqtisadi təşkilatlar da eləcə iqtisadiyyatın liberallaşmasını və açıqlığını tələb edir.

**Dövlət tənzimlənməsi** – bu, iqtisadi sistemlərin fəaliyyət prosesinə dövlət qurumlarının məqsədyönlü təsiridir və bu təsir təzahür edən iqtisadi, ekoloji və sosial qeyri-mütənasibliklərin aradan qaldırılmasına istiqamətlənib.

Müasir dünyada dövlət qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

- sabit iqtisadi artımın, eləcə də başqa makroiqtisadi göstəricilərin sabitliyinin təmin edilməsi (məşğulluq, inflyasiyanın səviyyəsi, pul kütləsinin artma sürətləri, əsas ticarət tərəfdaşlarının valyutalarına münasibətdə milli pul vahidinin kursunun sabitliyi və sair);
- milli gəlirin bölüşdürülməsində sosial ədalətin təmin edilməsi.

Dövlətlərin tarixi milli iqtisadiyyatın tənzimlənməsi üsulları ilə zəngindir. İstehsalçıya təsirlərinə görə onları *direktiv üsullara (əmr üsulu) və indikativ üsullara (tövsiyə üsulu)* ayırmaq mümkündür.

*Direktiv üsul* məcburidir və təsərrüfat subyektləri onu mütləq icra etməlidir. Əsasən o, dövlətin bütün xalq təsərrüfatının yeganə mülkiyyətçisi olduğu və ölkəni inzibati-amirlik üsulu ilə idarə etdiyi iqtisadiyyatlar üçün səciyyəvidir. Burada plan və qiymətlər vahid mərkəzdən müəssisə və təşkilatlara çatdırılır. Direktiv üsul liberal iqtisadiyyatlı ölkələrdə ictimai çevrilişlər və dərin iqtisadi böhranlar zamanı geniş istifadə olunur. Ancaq, təbii ki, bazar iqtisadiyyatının tənzimlənməsinin əsas dövlət üsulu *indikativ idarəetmədir*. Bu zaman proqnozlaşdırılın məlumat əsasında elmi təşkilatların hesabladığı dövlət iqtisadi strategiyası, eləcə də sahələrin və özəl şirkətlərin ona uyğun olan arzulanan fəaliyyəti onların nəzərinə tövsiyə və istiqamətverici rəy kimi çatdırılır.

Müasir elmdə keçid dövründəki dövlət siyasətinə iki münasibət bir-biriylə qarşı-qarşıya durub: *qradualist və radikal*. Birincisi üçün aşağıdakılar səciyyəvidir:

- əsasən qapalı iqtisadiyyat;
- geniş dövlət himayədarlığı;
- intensiv dövlət tənzimlənməsi;
- bazarın dövlət nəzarətində tədrici formalaşması.

*Radikal* konsepsiya bazarın tənzimlənməsinə dövlətin minimum müdaxiləsini (qeyri-səmərəli sahələrdə) nəzərdə tutur.

Ölkələrin, xüsusən də keçid iqtisadiyyatlı ölkələrin iqtisadiyyatlarının gerçək durumu qradualist və radikal konsepsiyalar arasında səmərəli razılığın tapılmasını tələb edir. Belə zərurət barəsindəki fikir 1991-ci il Roma klubunun «İlk qlobal inqilab» adlı məruzəsində dəqiq ifadə edilib. Orada deyilir ki, **bazar qüvvələri insani və sosial tələbatları qısamüddətli ödəməyə qadirdir. Ancaq bir çox ümumplanetar problemlər bazar qüvvələrinə qətiyyən tabe olmur. B.Şneder və A.Kinq (Roma klubu) avtoritar və sistematik planlaşdırmanın hədsizliyi ilə kapitalizmin məlum qəddarlığı və azğınlığı arasında tarazlığın əldə olunmasını təklif edirlər.**

Klassik iqtisadi konsepsiyanın müxtəlif istiqamətlərinin ardıcılları olan məşhur alimlər də bu baxışda ortaqdır. Onlardan biri olan C.Helbreyt XX əsrin ortalarında *tarazlaşdırıcı qüvvələr nəzəriyyəsini* təklif etdi. Müəyyən mənada hətta antiinhisar qanununa zidd çıxış edərək o, bazarın başqa “təbii” iştirakçılarıyla (alıcı, həmkarlar ittifaqı və sair) yanaşı, dövlətə inhisarçı meyllərin tarazlaşdırıcı amili rolunu verir.

Neoklassik V.Lüisin işləyib hazırladığı və inkişafda olan ölkələrə ünvanladığı *dualist iqtisadiyyat modeli* ənənəvi kənd təsərrüfatı sektorundan ucuz işçi qüvvəsinin bir hissəsinin sənayeyə yönəldilməsini və əmanətlərin investisiyalara cəlb edilməsini nəzərdə tutur. Bu isə bank sektorunda, kənd təsərrüfatının intensivləşdirilməsində və sənayeyə investisiya qoyuluşunun həvəsləndirilməsində dövlətin uyğun tənzimləyici rolu olmadan mümkün deyildir.

Müxtəlif ölkələrdə inzibati, yaxud iqtisadi tabeçiliyin və həvəsləndirmənin müxtəlif forma və üsulları istifadə olunur. Məsələn, dövlət tənzimlənməsi Yaponiya və Çində oyunun sərt qaydalarını doğurur, demokratik ənənələr mövcud olan ABŞ-da o, ictimai ittifaqlara (Amerikanın Fermer Bürolarının Federasiyası) arxalanır, Kanadada isə ərzaq bazarının dövlət tənzimlənməsinin sərt mexanizmi mövcuddur.

**Kənd təsərrüfatını tənzimlənməsi üzrə Aİ təcrübəsi**

Elmi dairələrdə milli aqrarsənaye kompleksləri islahatlarının aşağıdakı müasir modelləri mövcuddur.

İsrail modeli. Torpaq dövlət mülkiyyəti olduğu halda kommunalar və kəndli təsərrüfatları əsasında yaradılır.

Şimali Amerika modeli. İri ixtisaslaşmış fermalar, inkişaf etmiş xidmət və bank qurumları ilə bağlı olan xırda istehsalçılar bazasında yaradılır.
**Çin modeli. Torpağın ailələrə təhkim edilməsiylə yaradılır.**
**MDB çərçivəsində islahatların iki alternativ modeli tətbiq olunur.**
Radikal model. Mülkiyyətin özəlləşdirilməsi ilə müşayiət olunur (məsələn, Rusiya, Qırğızıstan və Qazaxıstanda).
Mərhələli və ardıcıl model. Məsələn, Belarus, Özbəkistan və Türkmənistanda.
İnkişaf etmiş ölkələrin yaraqxanasında məhəlli və regional aqrar bazarların dövlət tənzimlənməsi üzrə çoxlu vasitələr kompleksi mövcuddur. Bu ölkələr Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvü olduqları üçün TTBS-in (Tariflər və Ticarət üzrə Baş Saziş) Uruqvay dövrəsinin (1986-1993) aşağıdakı prinsipləri ilə hesablaşmağa məcburdur:

- minimal idxal qiymətlərindən, bərabərləşdirici ödənişlərdən, dövlət inhisarından və əksər məhdudiyyətlərdən imtina edilməsi;
- gömrük tariflərinin inkişaf etmiş ölkələrdə 36% və inkişafda olan ölkələrdə 24% endirilməsi;
- daxili bazara minimal idxal imkanları üçün zəmanət verilməsi (istehlakın 5%-indən çox idxal);
- istehsalçılar üçün olan subvensiyanın (dövlətin maliyyə yardımı) ixrac həcminin 20%-ə qədər azaldılması;
- ixrac dotasiyalarının ixrac həcminin 20%-nə qədər ixtisar edilməsi;
- ixrac dotasiyalarının ixrac dəyərinin 36%-nə qədər ixtisar edilməsi.

**Bundan əlavə, Montevideoda məişətdə üç anlam işlənir:**

- Yaşıl subvensial bokslar, yəni istehsala təsir etməyənlər *məhdudlaşdırılmır*.
- Sarı subvensial bokslar, istehsala birbaşa və nəticədə ticarətə təsir edənlər *məhdudlaşdırılmaq qərara alınıb*.
- Mavi subvensial bokslar, amillərə təsir göstərənlər *Uruqvay danışıqlarının barışığı oldu*. Yəqin ki, sonradan bu bokslar da məhdudlaşdırılacaqdır.

**Bazara istiqamətlənən ölkələr** üçün məhsul bazarlarının aşağıdakı xüsusiyyətləri səciyyəvidir:

- məhsul və maliyyə axınlarının şəffaflığı;
- kapital qoyuluşlarının investisiya cazibədarlığı;
- infrastrukturun inkişafı;
- yerli və idxal məhsulları arasında tarazlığın gözlənilməsi;
- məhsulun yüksək keyfiyyətliliyi;
- hamı üçün iş şəraitinin dəqiq qaydaları;
- xüsusi istehlakçıların təmin modelinin səmərəliliyi;
- şaquli inteqrasiya olunan səmərəli sabit əlaqələrin mövcudluğu;
- maliyyə-kredit sisteminin mükəmməlliyi;
- sığorta sisteminin mükəmməlliyi;
- daxili bazarın qorunmasının səmərəliliyi.

ABŞ-ın Milli İqtisadi Tədqiqatlar Bürosu (MİTB) ərzaq bazarının idarə edilməsi üçün dövri indikatorlar sistemini işləyib hazırlayıb:

- iş həftəsinin orta müddəti, emaledici sənayedə məşğulluq;
- işsizliyin faizi;
- işsizlik üzrə müavinətlər haqqında orta həftəlik yeni bildirişlər;
- müəssisələrin xalis say artımı;
- uzun müddət istifadə olunan məhsullara yeni sifarişlərin məbləği;
- zavodların tikilməsi və avadanlığın alınması üzrə sazişlər və sifarişlər;
- şəxsi evlərin tikilməsinə icazə;
- emaledici sənaye və ticarət məhsulları ehtiyatları miqdarının dəyişilməsi;
- 500 adi səhmin indeksi;

- vergilər çıxıldıqdan sonra korporasiyaların gəlirləri;
- qiymətlərin məhsul vahidinə sərf olunan əməyə nisbəti;
- istehlak borcunun məbləğində dəyişikliklər;
- cari və müqayisə edilə bilən qiymətlərdə son ictimai məhsul;
- sənaye məhsulunun indeksi;
- şəxsi gəlirlər;
- emaledici sənaye məhsullarının satışı;
- pərakəndə satış mağazalarının dövriyyəsi;
- qeyri-kənd təsərrüfatı üzrə məşğulluq.

ÜDM-də kənd təsərrüfatının getdikcə azalan payı Aİ-yə üzv ölkələrinin, eləcə də bütün inkişaf etmiş ölkələrin səciyyəvi xüsusiyyətidir: 1913-cü ildə - 1/3, indiki vaxtda – 2%. Ölkələr üzrə 1,5-8% kimi paylanıb: yüksək inkişaf etmiş ölkələrdə 2-3%, İtaliya, Yunanıstan, Portuqaliyada əhəmiyyətli dərəcədə yüksəkdir. Buna baxmayaraq, Fransa (14,5%), AFR (13%), İtaliya (10%), Böyük Britaniya (8%) əsas kənd təsərrüfatı istehsalçılarıdır. Bu deyilənlərə və bu sahədəki məşğulluğun azalmasına (1960-cı ildəki 17% əvəzinə 7%) baxmayaraq, istehsal həcmlərinin artması baş verirdi. Bu, səmərəliliyin, ilk növbədə isə əmək məhsuldarlığının (o, ABŞ-dakından 2 dəfə az olsa da) yüksəlməsi ilə izah olunur.

Aİ ölkələri 80-ci illərin sonunda əsas kənd təsərrüfatı məhsulları üzrə 90% özünütəminə nail oldu. Taxıl, süd və süd məhsulları, şəkər, yumurta məhsullarının artığı ixrac olunur.

Aİ dünya istehsalındakı payı:
yemlik taxıl – təqribən 10% (bu, başqa ölkələrə nisbətən daha baha başa gəlir);
taxıl – 7%;
süd – 20%;
ət – 18%;
şəkər – 12%.

<u>İstehsalın regional quruluşu rayonların təbii və iqtisadi ehtiyatlarına daha yüksək dərəcədə uyğunlaşır, bu isə yüksək keyfiyyətli nisbətən ucuz ərzaq məhsullarının istehsalına kömək edir.</u>

<u>*Aİ ölkələrinin aqrar sahədəki qarşılıqlı münasibətlərində* sahənin maliyyələşdirilməsi, qiymətlərin tənzimlənməsi, qarşılıqlı preferensiya (imtiyazlar) siyasəti tətbiq edilir. Sahənin nisbətən aşağı səmərəliliyi səbəbindən qiymətlər dünya qiymətlərindən daha yüksək təyin edilir, buna görə də gömrük maneələri, kompensasiya yığımları və rüsumları, yaxud ümumiyyətlə, ayrı-ayrı məhsulların idxalına yasaqlar vasitəsilə xarici rəqiblərdən qorunmaq lazım gəlir</u>. Bu isə ABŞ, Avstraliya və digərləriylə münasibətləri kəskinləşdirir. Səmərəliliyin aşağı səviyyəsi «izafi məhsul»un ixracı üçün dövlətin dəstəyini tələb edir. <u>Kənd təsərrüfatının istiqamətləndirilməsi və təminatı üzrə Avropa fondu (KİTAF)</u> bu işlə məşğul olur. Onun büdcəsi Aİ-nin ÜDM-nin 1%-ni təşkil edir. Fondun 80%-i *təminata*, yəni ixracın (sitruslar, şərab, süd məhsulları) maliyyələşdirilməsinə, 20%-i isə *istiqamətləndirməyə*, yəni kənd təsərrüfatının rentabelliyinin yüksəldilməsinə sərf olunur. 1980-ci ildə qiymətlər üçün büdcə yardımı kənd təsərrüfatı istehsalının 49,3%-nə çatdı. KİTAF-ın əsas funksiyaları aşağıdakılardır:

- qiymətlərin və gəlirlərin dəstəklənməsi, bu işə vəsaitlərin böyük hissəsi sərf olunur;
- quruluş dəyişikliklərinin həyata keçirilməsi.

**Eləcə də KİTAF aşağıdakıları maliyyələşdirir:**

- «həyatqabiliyyətli» qəbul edilmiş təsərrüfatlarını modernləşdirən fermerlərə göstərilən dövlət yardımının 25%-i;
- sonradan torpağın rentabelli təsərrüfatlara ötürülməsi, yaxud onun istehsaldan çıxarılması şərtilə «qeyri-həyatqabiliyyətli» ferma sahiblərinə təqaüd və mükafatların ödənilməsi.

KİTAF-ın daxilində münaqişələr baş verdiyi üçün (donorlarla istehlakçılar arasında) maliyyələşdirmə sərtləşir. Məsələn, «təminatlı maksimal miqdar» mexanizmi yeridilir, yardımın bu həddən yuxarıdakı təminat qiymətləri aşağı endirilir.

***Qərb ölkələrinin aqrar sektordakı himayədarlıq siyasəti inkişafda olan ölkələrə ildə 100 milyard dollara başa gəlir.***

Aİ 1958-ci il yanvarın 1-dən Fransa, İtaliya, İspaniya, Almaniya, Belçika, Lüksemburq arasında qüvvəyə minən Roma müqaviləsinə əsasən təsis edilib. Bu ölkələrin kənd təsərrüfatı nazirləri, fermer təşkilatlarının rəhbərləri, yeyinti sənayesi və ticarət nümayəndələri aşağıda sadalanan aqrar siyasət prinsiplərini müəyyənləşdirmək üçün 1958-ci ilin iyulunda Strezdə (İtaliya) toplaşdılar:

- elmi-texniki tərəqqinin (ETT) və istehsalat amillərinin səmərəli istifadəsi əsasında əmək məhsuldarlığının artırılması;
- həyat səviyyəsinin orta standartlara, xüsusilə də kənd təsərrüfatı ilə məşğul olan şəxslərin gəlirlərinin yüksəldilməsi;
- bazarın sabitləşməsi;
- dayanıqlı təklifin təmin edilməsi;
- istehlakçıya aşağı qiymətlərlə təklif edilməsi imkanı.

Vahid aqrar siyasətin (VAS) əsasında aşağıdakı prinsiplər durur:

- vahid bazar;
- qarşılıqlı imtiyazlar;
- maliyyə həmrəyliyi.

Roma müqaviləsinin 39-cu maddəsində deyilir ki, kənd təsərrüfatını və kənd təsərrüfatı məhsulları ticarətini Ümumi Bazarın hüquqi tabeliyinə daxil etmək zəruridir. Vahid daxili bazarın yaradılması üçün aşağıdakılardan ibarət aqrar siyasət hazırlandı.

1. İstehsalatın səmərəliliyinin və əmək məhsuldarlığının texniki inkişafı sayəsində kənd təsərrüfatı istehsalı məhsuldarlığının yüksəldilməsi.
2. Kənd sakinləri üçün əlverişli həyat şəraitinin və kənd təsərrüfatı fəaliyyətindən sabit gəlirlərin təmin edilməsi.
3. Aqrar bazarların sabitləşdirilməsi hesabına kənar istehsalçılardan və istehlakçılardan müdafiənin təmin edilməsi.
4. Əsas məhsullar üzrə dünya bazarı sarsıtılarından müdafiənin təmin edilməsi.
5. İstehlak tələbinin ödənilməsi.

**Aşağıdakılar əsas tənzimləmə sahələri elan edilib:**

1. Ümumi bazar siyasəti. Ümumi aqrar bazarı idarə edən komitə yaradıldı. Bunun üçün üç fəaliyyət istiqaməti formalaşdırıldı:

- vahid rəqabət şərtləri;
- bazarın mütləq əlaqələndirilməsi;
- tənzimlənən vahid Avropa bazarının yaradılması.

**Bu günə qədər yalnız axırıncı məsələ sonadək həll edilib.**

2. Ticarətin inkişafı üzrə tədbirlər kompleksindən ibarət quruluş siyasəti.
3. Məhsulların vahid təsnifatı.

**Bazarın idarə edilməsinin əsas xüsusiyyətləri:**

- Aİ daxilində məhsulların azad yerdəyişməsi;
- vahid qiymətlər və ümumi maliyyələşdirmə;
- Aİ-də istehsal olunan məhsulların «təbii üstünlüyü».

Bununla yanaşı, aşağıdakılar bəyan edilmişdi:

- İttifaq daxilində rəqabət münasibətləri birinci dərəcəli vəzifədir;
- tələb və təklif qiyməti təyin edir;
- Aİ daxilində diskriminasiya istisna edilir;
- tənzimləmə mərkəzdən təsir deməkdir.

1962-ci ildə taxıl və şərab, 1963-cü ildə isə mal əti və düyü üzrə vahid bazar təsis edildi.

Aİ daxilində ümumi maraqlarla yanaşı, aşağıdakı problemlər də mövcuddur:
1. *Maliyyə həmrəyliyi prinsipindən* mühüm çətinliklər doğur. Hər bir ölkə çoxlu vəsait almaq istəyir, eyni zamanda başqa ölkələrin maliyyə iddialarının məhdudlaşdırılmasında maraqlıdır. Belə ki, 1990-cı ilin göstəricilərinə görə, AFR və Böyük Britaniya qoyduqları payın təqribən yarısını istifadə ediblər. Lüksemburq, ümumiyyətlə, istifadə etməyib. Fransa da az istifadə edib. İrlandiya verdiyi paydan təqribən 6 dəfə çox, Yunanıstan 4 dəfə çox, Portuqaliya 2 dəfə çox vəsait istifadə ediblər.

2. Daha səmərəli ixtisaslaşma məsələsi həll edilməyib.
3. Daxili qiymətlərin dünya qiymətlərindən yüksək səviyyədə saxlanılmasına yönələn vahid aqrar siyasətin (VAS) prinsiplərinin gerçəkləşdirilməsi, ixrac subsidiyaları və özünütəminə istiqamətlənmə həm TTBS çərçivəsində, həm də Mərkəzi və Şərqi Avropa ölkələri ilə münaqişələrə gətirib çıxarır (kənd təsərrüfatı əslində heç vaxt TTBS-ə tabe olmayıb).
Aİ ölkələrində aqrar bazarın dövlət tənzimlənməsinin (ABDT) əsas istiqamətləri:
- fermerlərin gəlirlərinin və topladıqları vəsaitlərin səviyyəsi;
- kənd təsərrüfatında sosial proseslər;
- ETT nailiyyətlərinin tətbiqi;
- məqsədli yardımlar.

Aİ-də aqrar bazarın əsas tənzimlənmə formaları:
- dövlət proqramları;
- millətlərarası proqramlar.

İstehsal həcminə görə birbaşa ödənişlərin həyata keçirilməsi Aİ-nin müasir siyasətidir. Bu, dövlət xərclərinin ixtisarına və kənd təsərrüfatı məhsullarının qiymətlərinin bir qədər azaldılmasına imkan verir. Aşağıdakıların tikintisi dövlətin üzərinə düşür:
- yollar;
- elektrik şəbəkələri;
- baş hidravlik qurğular;
- torpağın münbitliyinin saxlanılması;
- bataqlıqların qurudulması və onların kimyəvi meliorasiyası;
- meşəsalma məsələləri.

İndi üzvi maddələr və herik əsasında aparılan kənd təsərrüfatı üçün dotasiyalar (xərcələrini ödəmək üçün ayrılan yardımlar) geniş yayılır.
Dövlət iri şaquli inteqrasiya olunmuş qurumların, maliyyə təşkilatlarının və infrastrukturun başqa müəssisələrinin qarışıq qurumlar kimi yaranmasında fəal iştirak edib. Bundan əlavə, dövlət aşağıdakıları həyata keçirir:
- baytarlıq və fitosanitar nəzarəti;
- toxum müfəttişliyini;
- karantin xidmətini;
- torpaqdan istifadəyə nəzarəti;
- vençur tədqiqatları.

Dövlət təzimləməsinin kənd təsərrüfatı məhsulları qiymətlərinin formalaşmasına müdaxilə etməyə hüququ yoxdur. Qiymətlərin tənzimlənməsi sistemində üç mərhələ mövcuddur:
- 1933-1972. Qiymətlərin (girovlu və alış) təyin edilməsinin yalnız paritet (tənsay) prinsipləri;
- 1973-1983. Tənsay prinsipi və istehsalın məsrəfləri prinsipi.
- 1984 və sonra. Yardımçı qiymətlərin daxili və xarici bazarlara səmtləşdirilməsi.

Aqrar bazarların dövlət tənzimlənməsinin qiymətləri üçün (ABDT) aşağıdakı ünsürlər tətbiq edilir:
- kənd təsərrüfatı qiymətlərinin dövlət orqanları tərəfindən qeydiyyatı. Əsas ərzaq məhsulları üzrə pərakəndə qiymətlərin təyin edilməsinin bir növüdür və əksər ölkələrdə yalnız 50-ci illərin ortasında ləğv edilib. Üsullarının müxtəlifliyinə baxmayaraq, bütün Aİ öl-

kələri kənd təsərrüfatı məhsullarının dünya qiymətlərindən 3-4 dəfə yüksək olan qiymətlərini daxildə qoruyub saxlayır;

- zəmanətli minimal alış və girov qiymətləri;
- fermerlərin mülkiyyətində olan ehtiyat məhsul fondlarının həmin məhsullar girova götürülməklə xüsusi subsidiyaların ödənilməsi yolu ilə yaradılması;
- daxili qiymətlərin müdafiəsi:
  - gömrük rüsumları dəyərin faizi şəklində təyin edilir;
  - kompensasiya yığımları=qorunan qiymət-dünya qiyməti. Bu tədbir gömrük tədbirinə nisbətən daha çevikdir;
  - qeyri-tarif maneələri;
- ixrac subsidiyaları;
- analitik fəaliyyət.

**Kompensasiya yığımları eyni zamanda idxal vergiləri adlanır.**
Bu cəmiyyətdə vahid qiymətlərin aşağıdakı sistemi mövcuddur:
**Qorunan qiymətlər – məhsulun idxal edildiyi minimal qiymətlər.**
Məqsədli qiymətlər – bu, topdansatış qiymətləridir. Onlar kənd təsərrüfatı məhsulları üzrə pərakəndə qiymətlərin təyin edilməsi üçün əsas rolunu oynayır. Aİ Nazirlər Şurası tərəfindən təyin edilir, ancaq onlara zəmanət verilmir, istehsalçılar və istehlakçılar üçün istiqamətləndirici rolunu oynayır. Bazar qiymətləri yüksəlirsə qiymətlərin enməsi (məhsul intervensiyası) üçün tədbirlər görülür. Əks halda isə qiymət intervensiyası yeridilir. Qiymət intervensiyası bazar qiymətlərinin minimal səviyyəsidir. Bu halda məhsulların təklif olunan qiymətlərinin enməsi üçün Aİ tədbirlər görür. Onlara zəmanət verilir. Adətən bu, bazis qiymətlərin 5-25%-ni təşkil edir. Hazır məhsul üçün təyin edilir.
*İxracın ixtisarı* üzrə tədbirlər:

- ixrac üzrə vergi;
- embarqo;
- lisenziyalaşdırma və s.

Aİ-də kənd təsərrüfatı məhsullarına, demək olar ki, vergi qoyulmur. Əksər ölkələrdə vergi ödəmələrinin məbləği vergi imtiyazlarının məbləğindən kiçikdir.
Kənd təsərrüfatı üçün əlverişsiz olan şərait zamanı bir baş mal-qara, bir hektar əkin torpağı üçün, eləcə də ərzaq məhsullarının əsas növləri üzrə qiymətlərin aşağı səviyyədə saxlanılması üçün dotasiyalar sistemi nəzərdə tutulub.
ÜTT Uruqvay danışıqlarının subvensial (maliyyə yardımları) məhdudiyyətləri inkişaf etmiş ölkələri, o sıradan Aİ-ni ixrac problemlərinin həlli yollarını axtarmağa məcbur edir. Hadisələrin axını göstərir ki, Aİ kənd təsərrüfatının qorunması problemi üzrə qərarı keyfiyyət standartlarının yeridilməsi vasitəsilə axtaracaqdır. Ancaq belə yanaşma müqavimətə rast gəlib və mübahisə hələ də həll olunmayıb.
Aİ ölkələri ÜTT-nin təzyiqi altında 1987-ci ildə dənli, yağlı və tərkibində zülal olan bitkilərin qiymətlərini endirdi, ancaq əvəzində hər sahə vahidi, hər baş mal-qara, ərazinin ekstensifikasiyası (əkinçiliyin inkişafı) və meşə salınması üçün mükafatlar təyin etdi. Məqsəd kənd təsərrüfatı işçilərinin azalan gəlirlərinin əvəzini ödəməkdən ibarət idi. Bu siyasəti bəzi aqrarçılar tənqid edir. Onlar Aqenda-2000-nin aşağıdakı iddialarında ifadə olunub.
1. Aİ siyasəti rifahın itirilməsinə, qeyri-düzgün investisiya səbəblərinə gətirib çıxaracaq. Dünya iqtisadiyyatına qovuşmaq və daha əhəmiyyətli sosial məhsul əldə etmək daha yaxşı olardı.
2. Belə müdafiə qeyri-səmərəlidir, çünki yardımın çox hissəsi kənd təsərrüfatı istehsalçılarına, hətta, məsələn, anbar icarədarlarına sərf olunmur.
3. Yüksək qiymətlər gəlirinin çox hissəsini ərzağa sərf edən aztəminatlılara ziyan vurur.
4. Aİ-nin xərclərinin 50%-i aqrar sektorun müdafiəsinə yönəlib, bu isə başqa sahələrin inkişafına mane olur.
5. Yüksək qiymətlər intensifikasiya və ixtisaslaşmaya səbəb yaradır, bu isə ətraf mühitə ziyan vurur.

6. İdxalçı və ixracçı bölgələr arasında münaqişə yaranır, çünki idxalçı bölgələr üçün bu siyasət sərfəli deyildir.
7. Yüksək qiymətlər səbəbindən ticarət üzrə tərəfdaşlıq edənlər arasında münaqişələr baş verir.
8. İdarəetməyə çoxlu xərclər çəkilir.
Həmin mütəxəssislər aşağıdakıları tövsiyə edirlər:

- kənd təsərrüfatı işçilərinə yardım məqsədilə birbaşa müvəqqəti ödənişlər təyin edilsin;
- xırda təsərrüfatlara subvensiyalar daha da artırılsın, iri təsərrüfatlara isə azaldılsın.